# Yeni dərs ilinə hazırlaşırlar

## Bum qəsəbə tam orta məktəbində

Ötən hər bir gün bizi yeni dərs ilinin ilk gününə—Bilik gününə yaxınlaşdırır. Məhz buna görə də hər bir pedaqoji kollektiv doğma iş yerini səliqəyə salır, abadlıq işlərini gücləndirir. Təbriz Yaqubov adına Bum qəsəbə tam orta məktəbində aparılan hazırlıq işləri bu baxımdan qənaətbəxşdir. Pedaqoji kollektivdə 80 nəfərdən artıq müəllim çalışır. Keçən dərs ili məzunlarından 17 nəfəri respublikanın müxtəlif ali təhsil ocaqlarına qəbul olunmuşdur. Onlardan 2 nəfəri 600-dən artıq bal toplamışdır. Bu il birinci siniflərə 65 nəfər, hazırlıq siniflərinə isə 61 nəfər şagird qəbul olunacaq. Deməh olar ki, qəbul başa çatmaq üzrədir. Qəbul olunanların sənədləri tam hazırdır. Direktor Məlahət Dadaşova bildirdi ki, həmin siniflərdə dərs deyəcək müəlllimlər təlim kurslarından da keçiblər.

## Uludaş kənd tam orta məktəbində

Uludaş kənd Qafur Şərifov adına tam orta məktəbi rayonumuzun qabaqcıl təhsil müəssisələrindəndir. Məktəb yeni və səliqəli binada yerləşir. Keçən dərs ilində pedaqoji kollekitivin keyfiyyət və müvəffəqiyyət göstəricisi yüksək olmuşdur. Direktor Sadəddin Eldarovla apardığım söhbətdən məlum oldu ki, keçən dərs ilində 16 nəfər orta təhsil haqqında attestat almışdır. Onlardan 3 nəfəri ali məktəblərə qəbul olunmuşdur. Pedaqoji kollektiv 42 nəfər müəllimlə yeni dərs ilinə başlayacaq.

Yeni dərs ilində birinci sinfə gələcək 30 nəfərin sənədləri hazırdır. Bu il birincilərə təcrübəli və qabaqcıl sinif müəllimləri olan Rəna Eldarova və Əsmər Ağammədova dərs deyəcəklər.

✍ **Emin BARATOĞLU,**
**AYB-nin və AJB-nin üzvü.**

# Gəncliyimiz–gələcəyimiz

Avqustun 12-də Beynəlxalq Gənclər Günü qeyd olundu. 1998-ci il avqustun 8-dən 12-dək Lissabonda gənclərlə iş üzrə nazirlərin iştirakilə keçirilən beynəlxalq konfransda belə qərara alınıb ki, hər il avqustun 12-si dünyada Gənclər Günü kimi qeyd olunsun. Bu günün keçirilməsində məqsəd həmin gündə gənclərə daha çox diqqət yetirmək, onların nailiyyətlərini təbliğ etmək, cəmiyyətin bütün sahələrində gənclərin işinə təkan verməkdir. Tarixin bütün dövrlərində xalq öz gələcəyinə ümidlərini gənclərə bağlamışdır. Ümummilli lider Heydər Əliyevin 1969-1982-ci illərdə respublikaya rəhbərlik etdiyi dövrlərdə gələcəyimizə layiqli gənclərin yetişməsi üçün yüzlərlə yeni tədris ocaqları, gənclik mərkəzləri, hərbi məktəblər açılmış, minlərlə gənc keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində o dövr üçün müasir sayılan ixtisaslara yiyələnmiş, təhsillərini başa vurduqan sonra da yüksək qayğı ilə əhatə olunmuşlar. Gənclərimizin bir çoxu ehtiyaca görə keçmiş SSRİ-nin müxtəlif guşələrinə yüksək ixtisaslı mütəxəssis kimi göndərilmiş, ad-san sahibi olmuş, vətənimizin adını ucaltmışlar. Vətənə dönən gənclər də burada istehsal sahələrində, tikintidə, sosial obyektlərdə müvəffəqiyyətlə çalışmışlar. Vətənimiz müstəqillik əldə edərkən artıq kifayət qədər təcrübə qazanmış yüksək ixtisaslı kadrlara malik idi.

Heydər Əliyev deyirdi «Xalqımız, cəmiyyətimiz üçün gərəkli olmaq gənclər üçün böyük şərəfdir. Gənc nəsil Azərbaycanın gələcəyidir. Bu gənclərin qeydinə qalmaq, onlara qayğı göstərmək lazımdır.» Ulu öndərin bu tövsiyəsi Azərbaycan Respublikasının Prezidenti, gənclərin böyük dostu və hamisi möhtərəm cənab İlham Əliyev tərəfindən ardıcıl şəkildə həyata keçirilir. Dövlət başçısının müvafiq sərəncamları ilə 2005-ci ildən bəri gənclərlə bağlı bir neçə Dövlət Proqramları təsdiq olunub həyata keçirilmişdir. Azərbaycan gəncliyi də xalqın, dövlətimizin onlara bəslədiyi böyük ümidləri ləyaqətlə doğruldur. Elə təkcə bu il ölkəmizin ev sahibliyi etdiyi IV İslam Həmrəyliyi Oyunlarında və «Formula 1» Azərbaycan Qran-prisində ölkəmizə qələbə sevinci qazandıranlar arasında gənclər üstünlük təşkil edir.

Azərbaycan gəncləri təkcə idman sahəsində deyil, istehsalın, ictimai-siyasi həyatın bütün sahələrində fəal iştirak edirlər. Gənclərimiz Vətənimizin sərhədlərinin keşiyində ayıq-sayıq dayanır. Onlar 2016-cı ilin aprelində olduğu kimi düşmənə sarsıdıcı zərbə vurmağa, işğal altındakı torpaqlarımızı azad etməyə qadirdirlər. Buna görə də qürurla deyə bilərik:

—Gələcəyimiz etibarlı əllərdədir.

✍ **İlkin MAARİFOĞLU.**
**«Qəbələ»**

# 2017-ci ilin birinci yarısında Qəbələ rayonunun sosial-iqtisadi inkişafı haqqında məlumat

**Ümumi məhsul və əhalinin gəlirləri**

2017-ci ilin birinci yarımilində rayonda 67034 min manatlıq məhsul istehsal olunmuş, onun hər nəfərə düşən həcmi 639 manat təşkil etmişdir.

Məhsul və xidmətlərin 68,5 faizi istehsal sahələrinin, 31,5 faizi isə xidmət sahələrinin payına düşmüşdür.

**Ərazi və əhali**

Rayonun ərazisi 1548 kv km-dir. 1 iyul 2017-ci il tarixə mövcud əhalinin sayı 104873 nəfər olmuşdur. Əhalinin sıxlığı hər kv km-ə 67,6 nəfər təşkil edir.

Onların 13948 nəfəri yaxud 13,3 faizi şəhər, 21918 nəfəri yaxud 20,9 faizi qəsəbə, qalan 69007 nəfəri yaxud 65,8 faizi kənd yerlərində yaşayır.

Həmçinin Qəbələdə 689 məcburi köçkün ailəsi və bu ailələrdə 2443 nəfər məcburi köçkün vardır.

Mövcud 64 yaşayış məntəqəsində 1 şəhər, 3 qəsəbə, 56 kənd ərazi nümayəndəliyi və 29 bələdiyyə fəaliyyət göstərir.

2017-ci ilin birinci yarımili ərzində 845 körpə doğulmuş və 353 nəfər ölən qeydə alınmışdır. Vəfat edənlərin 3 nəfəri 1 yaşa qədər uşaqlar olmuşdur.

Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər min nəfərinə doğulanlar 7 faiz azalmış, ölənlərin sayında isə 33,7 faiz artma müşahidə olunmuşdur. Eləcə də 278 nikah və 52 boşanma qeydə alınmışdır ki, keçən ilin müvafiq dövrü ilə müqayisədə nikahların sayı 7 faiz azalmış , boşananların sayı isə 20,9 faiz artmışdır.

**Kənd təsərrüfatı**

Keçən ilin payızında 21047 hektar sahədə payızlıq taxıl əkilmişdir 2017-ci ilin birinci yarımilində 10114 ton taxıl, 1331 ton kartof, 1440 ton tərəvəz və 89 ton meyvə istehsal olunmuşdur.

Cari ilin ötən dövründə 2031 ton diri çəkidə ət, 20022 ton süd, 5923 min ədəd yumurta, 312.2 ton yun istehsal olunmuşdur. Ötən ilin müvafiq dövrünə nisbətən yumurta istehsalı 2 min ədəd, yun istehsalı 0.2 ton, süd istehsalı isə 472 ton artmış, ət istehsalı isə 21 ton azalmışdır.

**Sənaye**

2017-ci ilin yanvar-iyun aylarında sənayedə istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 14433 min manat təşkil etmişdir. Bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 17,9 faiz çoxdur.

Bu ilin altı ayı ərzində sənaye müəssisələrində çalışan 1376 nəfərin orta aylıq nominal əmək haqqı 332 manat təşkil etmiş və bu, əvvəlki illə müqayisədə 2,5 faiz çox olmuşdur.

**Tikinti**

2017-ci ilin 1 iyul vəziyyətinə rayonda əsas kapitala yönəldilmiş investisiyanın həcmi 6152 min manat, tikinti quraşdırma işlərinin həcmi isə 5833 min manat təşkil etmişdir.

Həmin dövrdə ümumi sahəsi 11000 kv.metr olan 120 fərdi ev tikilib istifadəyə verilmişdir.

**Mədəniyyət və turizm**

Cari ilin 1 iyul vəziyyətinə 1 mədəniyyət evi, 26 kitabxana, 1 xalq teatrı, 31 klub müəssisəsi, 4 mədəniyyət və istirahət parkı, 3 muzey fəaliyyət göstərmişdir. Rayonda 93 mədəniyyət abidəsi və 1 dövlət qoruğu vardır. Abidələrin 61-i dövlət əhəmiyyətlidir.

**Təhsil**

Rayonumuzda 4 ibtidai, 11-əsas və 53 tam orta ümumtəhsil məktəbləri fəaliyyət göstərir.

Ötən dərs ilində bu təhsil ocaqlarında 16998 nəfər şagird təhsil almışdır. Şagirdlərin təlim-tərbiyəsi ilə 2620 müəllim məşğul olmuşdur.

Mövcud 22 məktəbəqədər uşaq müəssisələrində isə uşaqların sayı 780 nəfərdir.

Qəbələ Peşə Təhsili məktəbində də 408 nəfər gənc 8 ixtisas üzrə müxtəlif peşələrə yiyələnir.

**Səhiyyə**

Ötən yarımildə rayonda 6 xəstəxana, bu xəstəxanalarda 330 çarpayı, 36 tibb və feldşermama məntəqəsi, 9 ambulator poliklinika müəssisəsi fəaliyyət göstərmişdir.

Bu müəssisələrdə 178 həkim, 461 kiçik tibb işçisi çalışır. Əhalinin hər 10000 nəfərinə 18,8 həkim, 48,6 nəfər tibb işçisi düşür.

**(Ardı 7-ci səhifədə).**

# Azərbaycanda bütün sosial proqramlar uğurla icra edilir

Dövlət başçısının sosial-iqtisadi siyasətinin əsasında dayanan prinsiplərdən biri də respublikanın ümumi inkişafı şəraitində sosial cəhətdən həssas qruplardan olan insanların etibarlı sosial müdafiə sistemi ilə əhatə olunmasıdır. Bu amili son illərin dövlət büdcəsinə nəzər salarkən aydın şəkildə görmək olar. Məlumat üçün bildirək ki, 2017-ci ilin dövlət büdcəsinin 40,3 faizinin məhz sosialyönümlü xərclər təşkil etməsi sosial sahənin, o cümlədən sosial müdafiənin təmin edilməsinin ölkə rəhbərinin daim diqqət mərkəzində olduğunu təsdiq edir. Ölkədə işsizlik probleminin həlli, yeni sosial infrastruktur obyektlərinin - təhsil, mədəniyyət, səhiyyə, rabitə müəssisələrinin qısa müddət ərzində tikilərək istifadəyə verilməsi, yeni yolların, su, qaz, elektrik, rabitə xətlərinin çəkilişi son nəticədə Azərbaycan vətəndaşının mədəni-intellektual səviyyəsinin yüksəlişinə, mənəvi-əxlaqi dəyərlərin cəmiyyətimizdə əsas meyara çevrilməsinə xidmət göstərir.

# Pərakəndə ticarət dövriyyəsinin həcmi artıb

***Bu ilin yanvar-iyul aylarında pərakəndə ticarət şəbəkəsində satılmış məhsulların dəyəri əvvəlki ilin eyni dövrünün səviyyəsini müqayisəli qiymətlərlə 1,8 faiz üstələyərək 19 milyard manata bərabər olub.***

Dövlət Statistika Komitəsinin məlumatına görə, ticarət dövriyyəsinin 9,6 milyard manatını ərzaq məhsulları, içkilər və tütün məmulatları, 9,4 milyard manatını qeyri-ərzaq məhsulları təşkil edib və satılmış məhsulların dəyəri 2016-cı ilin yanvar-iyul aylarının göstəricilərini real ifadədə müvafiq olaraq 1,2 və 2,4 faiz üstələyib.

Hesabat dövründə istehlakçıların pərakəndə ticarət şəbəkəsində xərclədiyi vəsaitin 45,4 faizi ərzaq məhsullarının, 5 faizi içkilər və tütün məmulatlarının, 17,9 faizi toxuculuq məhsulları, geyimlər və ayaqqabıların, 6,1 faizi elektrik malları və mebellərin, 5 faizi avtomobil yanacağının, 1,4 faizi əczaçılıq və tibbi malların, 0,7 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 18,5 faizi isə digər qeyri-ərzaq məhsullarının alınmasına sərf olunub.

Yeddi ayda istehlak məhsullarının 11,7 faizi ticarət müəssisələri, 53,5 faizi fərdi sahibkarlar tərəfindən, 34,8 faizi isə bazar və yarmarkalarda satılıb. 2016-cı ilin eyni dövrü ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə müəssisələr üzrə 4,3 faiz, fərdi sahibkarlar üzrə 2,2 faiz, bazar və yarmarkalar üzrə 0,3 faiz artıb.

Bu müddətdə əhalinin bir nəfərinə düşən orta aylıq pərakəndə ticarət dövriyyəsi 279,2 və ya 2016-cı ilin müvafiq dövrünün göstəricisindən nominal ifadədə 39 manat çox olub. Ticarət şəbəkəsində bir ölkə sakini orta hesabla hər ay 140,6 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 138,6 manatlıq qeyri-ərzaq məhsulları alıb.

**AZƏRTAC**